# Xalq məhəbbətindən əbədiyyətədək

## *Ulu öndər Heydər Əliyevin Fəxri xiyabandakı ziyarətgahı bir daha bu sədaqətin şahidinə çevrildi*



Hər bir xalqın tarixində və taleyində unudulması mümkün olmayan hadisələr çox, şəxsiyyətlər isə az olur. Xalqın tarixinə yazılan şəxsiyyətləri zaman da unutmur, ictimai-siyasi burulğanlarda varlığını qoruyub saxlayan xalq da. Xalqımızın ümummilli lideri, ictimai-siyasi fəaliyyəti və bütövlükdə mənalı həyatı örnəyə çevrilən ulu öndər Heydər Əliyevin də məhz belə şəxsiyyət kimi tanınmasını və dühası qarşısında baş endirilməsini şərtləndirən amillər kifayət qədərdir.

...On dörd il öncə, dekabrın 12-də paytaxt Bakı sükuta və kədərə bürünmüşdü. O zaman hüznlü baxışlardan, qəhər və qüssədən damcılayan göz yaşları yanaqları yandırırdı. Dünən isə fərqli bir görüntünün də şahidi olduq: Fəxri xiyabanda ulu öndərin məzarını ziyarət edənlərin baxışlarından bir arxayınlıq da duyulurdu. Bunun səbəbləri az deyil. Ən əsası odur ki, ulu öndərin memarı olduğu müstəqil Azərbaycan nəinki Cənubi Qafqazda, əslində, inkişaf sürətinə görə dünyanın aparıcı dövlətləri sırasında inamla irəliləyir. Müdrik siyasətçinin vaxtilə müəyyənləşdirdiyi siyasi kurs dövlətimizin başçısı İlham Əliyev tərəfindən uğurla davam etdirilir.

Ulu öndərin şəxsiyyətinə hörmət və ehtiram təkcə mənsub olduğu ölkədə deyil, onun hüdudlarından çox-çox uzaqlarda da özünü daim göstərib. Bu ümumxalq və ümummilli məhəbbətin şahidinə çevrilənlərin arasında əcnəbilər də az deyildi. Ölkəmizdə fəaliyyət göstərən diplomatik korpusun nümayəndələri ilə yanaşı, Azərbaycanın füsunkar təbiətinin gözəlliyini gözləri ilə görməyə gələn turistlər də ziyarətçilərin arasında idilər. Yaşından və vəzifəsindən asılı olmayaraq, ölkənin yüz minlərlə vətəndaşı ulu öndərə sonsuz məhəbbətini ifadə etmək üçün Fəxri xiyabana üz tutmuşdu...

Həkim Adil Şükürov, energetik Məzahir Səfərov, dəmir yol mühəndisi Heydər Dərələyəzli hər il ulu öndərin məzarını ziyarət etdiklərini bildirdilər. A.Şükürov qeyd etdi ki, Azərbaycanın regionda lider dövlətə çevrilməsi xalqımızın ümummilli liderinin - həyat və fəaliyyətini bütünlüklə müstəqil respublikamızın çiçəklənməsinə, onun dünya birliyində layiqli yer tutmasına yönəltmiş Heydər Əliyevin siyasətinin nəticəsidir: “Ümummilli liderin uzaqgörən siyasəti bu gün Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Müstəqil Azərbaycan dövlətinin qurulmasında və dövlətçiliyinin qorunub saxlanmasında xilaskarlıq simvoluna çevrilən ulu öndər Heydər Əliyevin misilsiz xidmətlərini saymaqla qurtarmaz. Bizim hər birimizin bu ziyarəti ölkə vətəndaşının Vətənə və dövlətinin qurucusuna əbədi ehtiramı deməkdir”.

Diqqət çəkən məqamlardan biri də ziyarətçilərin əksəriyyətinin kollektiv halında gəlmələri idi. Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin kollektivi də Fəxri xiyabana üz tutmuş insan axınının arasında idi. Komitənin məskunlaşma, miqrasiya, məşğulluq və status şöbəsinin müdiri Sənan Hüseynov doğma yurdu erməni separatçıları tərəfindən işğala məruz qalanların ümumi fikirlərini ifadə edərək bildirdi ki, bu kateqoriyadan olan insanlar ümummilli lideri sözün əsl mənasında, özlərinin xilaskarı hesab ediblər: “Azərbaycan Prezidenti cənab İlham Əliyevin uğurla davam etdirdiyi siyasət bizi tezliklə doğma torpaqlarımıza qovuşduracaq. Bu əminlik hər bir məcburi köçkünün qəlbində boy atır. Ötən ilin aprel döyüşlərində düşmənlərimiz və onların havadarları da bunu bir daha yəqinləşdirdilər. Bu, memarı və qurucusu ulu öndər Heydər Əliyev olan müstəqil Azərbaycanın Prezidenti İlham Əliyevin yürütdüyü siyasət nəticəsində mümkünləşir. Cocuq Mərcanlı doğma yurd yerlərinə Böyük Qayıdışın əsasını qoydu. İşğalçı Ermənistanı vahimələndirən, Cənubi Qafqazda gücü və hərbi qüvvəsi ilə seçilən Azərbaycan Ordusunun kiçik bir həmləsi ilə qazanılan qələbə məcburi köçkünlərin sevincinə səbəb olub. Ona görə də xalqımız, o cümlədən məcburi köçkünlər ulu öndərin yaxın və uzaq gələcək üçün hesablanmış siyasi kursunun layiqincə davam etdirilməsi naminə Prezident İlham Əliyevin ətrafında daha da sıx birləşir. Biz qəti əminik ki, bu gün işğal altında qalan torpaqlarımızda da dinc quruculuq, abadlıq və firavan həyat bərpa ediləcək. Bu isə xalq məhəbbətinin əbədiyaşarlığını əsaslandıran amillərdən biridir”.

Müstəqil dövlətimizin uzaq olmayan, ötən əsrin ortalarındakı ictimai-siyasi vəziyyətinə və ulu öndərin onu aqrar bölgədən sənaye ölkəsinə necə çevirməsindən və bugünkü inkişafındakı misilsiz xidmətlərindən söz açan Bakı şəhər sakini, əslən Naxçıvan Muxtar Respublikasının Ordubad rayonundan olan Mehrac Əliyev də ömrünün ixtiyar çağlarında ümummilli liderin məzarını ziyarət etməyi özünə borc bildiyini dedi: “Ulu öndərin həyat və fəaliyyətinə nəzər salanda fəxrlə danışır və qürur hissi keçiririk. Bilirik ki, hələ gənclik illərindən siyasi baxışları ilə öz həmyaşıdlarından fərqlənən Heydər Əliyev zamanın qalibi tək tarixə imza atmaq yolu ilə irəlilədi. Çoxlarının sona kimi gedə bilmədiyi bu çətin və şərəfli yol dövləti və xalqı xoş və işıqlı sabahlara apardığından, ulu öndər mübarizliyinə və əyilməzliyinə - əzmkarlığına güvəndi! İstər birinci, istərsə də ikinci dəfə hakimiyyətdə olduğu dövrlərdə əsl xalq və millət, Vətən və dövlət adamı olduğunu işıqlı əməlləri, əməli fəaliyyəti ilə təsdiq etdi. İndi təqaüdçüyəm, amma uzun illər ulu öndər Heydər Əliyevin və Prezident İlham Əliyevin rəhbərliyi ilə müəyyən məsul vəzifələrdə çalışmışam. Düz on dörd ildir ki, oğlanlarımla birlikdə Fəxri xiyabana gəlib ümummilli liderin məzarı üstünə əklil qoyub, ziyarət etməyi özümüzə borc bilirik”.

Bakı şəhərinin Nərimanov rayonundakı 7 nömrəli poliklinikanın kollektivi də dünən ulu öndərin məzarını ziyarət etmək üçün Fəxri xiyabana üz tutmuşdu. Poliklinika üzrə YAP ilk təşkilatının sədri, uroloq-həkim Rafael Bayramovun fikrincə, ulu öndərin yalnız özünəxas qətiyyəti, möhkəm iradəsi, əsl liderə məxsus bacarığı Azərbaycanın bugünkü inkişafına səbəb olub: “Faktları sadalamağa ehtiyac olmasa da, qeyd etməliyik ki, ümummilli liderin dövlətçiliyimizin möhkəmləndirilməsi, vətəndaş cəmiyyətinin formalaşdırılması, dünyaya səpələnmiş soydaşlarımızın birliyini yaratması heç də təsadüfi deyildi. Bunlardan ən vacibi isə dünyanın aparıcı dövlətlərinin strateji maraqlarını Azərbaycanın mənafeyi istiqamətində birləşdirməyə nail olması idi. Ulu öndər bunu da öz iradəsi və siyasi təfəkkürü ilə bacardı. İctimai-siyasi fəaliyyətini, mənalı ömrünün bir qərinədən artıq dövrünü xaıqımızın və müstəqil dövlətimizin inkişafına həsr edən, bu yolda misilsiz xidmətlər göstərən Heydər Əliyev zamanın tarixini yaradan və yaşadan, onun fövqündə dayanmağı bacaran, dövlət idarəçiliyini kamil bilən fenomen kimi yazıldı yaddaşlara...”

Ziyarətçilər arasında Nərimanov rayonunun Rafiq Nəsrəddinov adına 39 nömrəli tam orta məktəbin müəllim və şagird kollektivi də var idi. Məktəbin ibtidai siniflər üzrə metodbirləşməsinin sədri, şəhid bacısı Sədaqət Məlikova, müəllimlərdən Flora və Sevər Orucovalar, Sevinc Paşayeva, Zülfiyyə Həsənova, Gülşən Tağıyeva, Adilə Bədəlova, Şəhla Əhmədova, Təranə və Yeganə Abdullayevalar, Aytən Rəfiyeva, Könül Əhmədova, İradə Məcidova, eləcə də valideyn Aytən Elazova və digərlərinin fikirlərini ifadə edən direktor Tahirə Şükürova vurğuladı ki, öz əməli, xilaskarlıq missiyası ilə tarixdə silinməz izlər qoymuş şəxsiyyətlər azdır: “Amma hər xalqın, millətin təkamül tarixində belə şəxsiyyətlər olub. Kifayət qədər mürəkkəb və keşməkeşli bir dönəmdə xalqının köməyinə yetən ulu öndər Heydər Əliyev Azərbaycanın inkişaf tarixində silinməz izlər qoydu. Titanik fəaliyyəti nəticəsində Azərbaycan dünyanın siyasi meydanında öz sözünü deyə bilən qüdrətli dövlətə çevrildi. Bugünkü elm və təhsildə qazanılan nailiyyətlərin əsasında da məhz ümummilli liderin siyasəti dayanır”.

Yeni Azərbaycan Partiyası Gənclər Birliyi fəallarından biri, Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının magistri Həbib Misirov dedi ki, xalqımızın xoş və firavan həyatına ömrünü həsr edən ümummilli lider Heydər Əliyevin bəşəri şəxsiyyət olması yeni tariximizin bütün səhifələrində özünü təsdiqləyir: “Dövlətimizin gənclər siyasəti bu gün çox uğurla və məqsədyönlü şəkildə həyata keçirilir. Azərbaycan gənci elmi və intellektual dünyagörüşü ilə dünyadakı həmyaşıdları arasında seçilir. Dünyanın ən aparıcı ali təhsil ocaqlarında elmin müasir nailiyyətlərini öyrənən gənclik gələcəyin kadrlarıdır. Bu potensiala xüsusi diqqət yetirən dövlət başçımızla fəxr edirik. Həm də ona görə ki, o, öz ətrafında yüz minlərlə vətənpərvər gənci birləşdirən Yeni Azərbaycan Partiyasının lideridir. Gənclik ulu öndər Heydər Əliyevin siyasi kursunu uğurla və məqsədyönlü şəkildə davam etdirən liderimiz - Azərbaycan Prezidenti ilə Vətənimizi daha da inkişaf etdirəcək. Bu uğurlar isə erməni təcavüzünə məruz qalmış torpaqlarımızın azad olunmasında vacib faktorlardan biridir. Bunu düşmən tərəfin gəncliyi də artıq etiraf etmək məcburiyyətindədir. 2003-cü il dekabrın 12-də Azərbaycan xalqı ağır itki ilə üzləşdi. Ümummilli lider Heydər Əliyev kimi tarixi şəxsiyyətini itirən xalqımızın həmin ərəfədə keçirdiyi kədər böyük idi. Ulu öndər özü qədər inandığı siyasi varisini sevimli xalqına və müstəqilliyini bərpa etmiş Azərbaycan dövlətinin bugünü və sabahını etibarlı əllərə tapşırıb gedirdi”...

Mədəniyyət və Turizm, Təhsil, Gənclər və İdman, Vergilər, Ədliyyə nazirliklərinin, habelə Penitensiar Xidmətin, Dövlət Filarmoniyasının, “Azərbaycan Kazakları İttifaqı”, “Nurgün” kimi iri şirkətlərin kollektivləri də dünənki ziyarətçilər axınında idilər. Xalqımızın çoxsaylı nümayəndələri müstəqil dövlətimizin memarı və qurucusunun müqəddəs məzarını ziyarət etmək üçün dəstə-dəstə Fəxri xiyabana üz tutmuşdu. Ziyarətçilər belə qüdrətli dövlətin banisi olduğu üçün ümummilli liderlə daim fəxr edəcəklərini dilə gətirir, Prezident İlham Əliyevin ətrafında sıx birləşməklə respublikamızın inkişafında səylərini bundan sonra da əsirgəməyəcəklərini əminliklə ifadə edirdilər.

***Məhəmməd NƏRİMANOĞLU,***
***Rəhman SALMANLI,***
***Fərman BAĞIROV (foto)***